# Qəlbdən gələn gözəllik

## (Teyfur Çələbinin 60 yaşına)

**Fevral, kiçik çilənin iyirmi günlük ömrünün on birinci günündə, qışın sərt bir çağında dünyaya gəlmiş, bəsirət gözü açıq sözləri ilə könülləri ovsunlamağı bacaran bir şairin ad günüdür.**

***Bölür, kəsir, üstə gəlir,***
***Gözlərimə tüstü gəlir.***
***Bir ömür atüstü gəlir,***
***"Vur"una bax, "çıx"ına bax.***



Atüstü gələn bu fevral da xoş gəlib. Nə itirdin, nə qazandın, şair? İtirdiklərin şux gəncliyin, qıvrım saçların, dumanda azmış bir durna, qazandıqların həyat dərsi, 60-dan çox kitab və...

Mövlanə Cəmaləddin Rumi deyir: "Bitkinin gözəlliyi toxumun yaxşılığından, insanın gözəlliyi isə qəlbindən gəlir".

Qəlbi gözəl olanlar Tanrının bəşər içindən seçdiyi insanlardır. Belə insanlar mərhəmətli, sevimli, xeyirxah olur. Özünün dediyi kimi bir dərviş ömrü yaşamış, dünyanı bütün gözəllikləri və çirkinlikləri ilə, olduğu kimi görməyi bacaran böyük insan Teyfur Çələbi gözəlliyi qəlbindən gələn şəxsiyyətlərdəndir.

Bu yaxınlarda tələbələrindən biri olmuş Telman Nüsrətoğlunu və məni çay süfrəsində tanış etdi. Adaşım elm adamı - alimdir, Türkiyə universitetlərinin birində müəllimlik edir. Bu iki insan demək olar ki, uzun müddətdir görüşməyiblər və həmin zaman kəsiyində T.Çələbi ilə biz tanış olmuşuq, yoldaşlıq etmişik. Həmin görüşdə söhbətimiz çox maraqlı alındı. Bir nəfəslik fasilədən sonra süfrə sahibi: "Sən Telmanı itirdim, şair Telmanı

tapdım, amma T.Çələbini itirən başqa bir T.Çələbi tapa bilməz!" - dedi. Bir həqiqət-aksiomadır, isbata ehtiyac yoxdur.

İndiyədək fani dünyanın "Ala qapı"sından keçərək, "Tanrı hökmü" ilə "Məmləkət"i gəzə-gəzə, "Dərviş nəğmələri" oxuya-oxuya, "İlahi şeirlər" yaza-yaza, "Üz tutduğu adamlar"la yoldaşlıq edib, həmsöhbət olub Baba Dərviş - Teyfur Çələbi:

***"Hər şey gözüm önündə baş verdi,***
***Başımı aşağı salıb söz mülkündə***
***söz yükümü daşıdım...***
***Mən dərviş ömrü yaşadım".***

Heç bir əzaba haqq etməyib şair. Şairi əzab çəkən cəmiyyətin cahili savabdan uzaqdır.

***"Mənim şairliyim nağıl kimidi,***
***amma əvvəlində***
***"biri vardı, biri yoxdu"su yox,***
***"üç alma"sı yox,***
***Əzabı çox, qorxusu çox".***

60 illik bir ömrü roman, şeir, publisistik yazılara köçürdü:

***"Habelə könlüm, habelə***
***Dözdün, dözüb tab elə.***
***Dərdlərini kitab elə,***
***Oxuyanı tapılacaq".***

Haqqın tərəzisini əyənlərə, insanlıq yolunu azanlara:

***"Nə meydana atılmısan,***
***nə satmısan, satılmısan,***
***Adam, dönüb it olmusan,***
***Mən yenə dərviş babayam".*** - deyə etiraz edir.

Söz sahibi olan Teyfur Çələbi insanlar üçün can yandıran, onların sevincinə sevinəndir, alturistir:

***"Məni ağlatma fələk,***
***ürək ağlar ağlasın.***
***Məni Tanrı öldürsün,***
***Səni Allah saxlasın".***

"İnsanları tanımaq üçün bütün gücünüzü verin, amma bütün sevginizi verməyin. Onları tanımağa başladıqca verdiyiniz sevgiyə acıyacaqsınız" - deyən Mövlanə Cəmaləddin Ruminin bu fikirlərini oxuyandan sonra başa düşdüm ki, Teyfur Çələbi insanlarla sıx münasibət qurmağı bacarmasına baxmayaraq, niyə "mənim dostum yoxdur" deyir.

**60 yaşın mübarək olsun, Dərviş Baba.**

***Sən mayaksan,***
***biz dənizdə gəmiyik,***
***Bir az özümüz kimi,***
***bir az sənin kimiyik.***

***Telman Ümman Tircanlı,***
*şair-publisist,*
*Azərbaycan Jurnalistlər*
*Birliyinin üzvi*